

# Ağacəfər Həsənli

Bu imza geniş oxucu kütləsinə yaxşı tanışdır. Ağacəfər Həsənli bir sıra kitabların, neçə-neçə maraqlı şeir və poemaların müəllifidir. Orijinal forma və məzmun əlvanlığı, özünəməxsus deyim tərzi, ifadə zənginliyi, obrazlılıq şairin əsərlərinin ruhundan qırmızı xətt kimi keçir...

## Hansı üzlə qayıdacaqsan?

Sən məni birtəhər yola vermədin,
Axı, nə vermisən, ala bilmirsən?
Nəsə çəkir səni başqa tərəfə,
Düşürsən min rəngə, hələ bilmirsən.

Rəhm etmir canımı üşüdən xəzri,
Bir eşqin soyuğu vurur bərədən.
Ömrümdə bir dəfə üz turşutmadım,
Üzümə qayıdan küləklərə də.

Nadinc uşaq kimi aldat başımı,
Aldada bilməzsən sərraf könlümü.
Çıxarıb sinəmdən yaş paltar kimi
Eşqin güneyində sər, lap könlümü.

Məni müjdə ilə ovunduracaq,
Ömrümə haçansa qayıdacaqsan...
Gərək, üz qoyasan qayıtmağa da,
Axı, hansı üzlə qayıdacaqsan?

## Kəfənin rəngi

Səni sevdiyimi gizlətmədim mən
Söylədim küləyə, ələnən qara.
Şəvə saçlarıma bir vaxt düşən dən
Bəxtimin rəngini boyadı qara.

O vaxtdan qaradır gözümdə həyat,
Gün təkcə gecədən ibarət olub.
Sənin sığındığın balaca həyət,
Mənim nəzərimdə imarət olub.

Çıxır qara tüstü damdan bayıra,
Sən tünd çay içirsən, yəqin pürrəngi.
Mən qara paltomu kəfən sayıram,
Hayıf, qara deyil kəfənin rəngi.

Dar dalan, dar döngə, üz-üzü görmür,
Burda kimsəsizlik məni üşüdür.
Axı, neyləyəsən, göz-gözü görmür,
Səni də ayrılıq çəni üşüdür.

## Nəsə yazılmışdı...

Nəsə yazılmışdı göyün üzündə
Küləklər pozdular, quşlar pozdular.
Bizim alnımıza yazılanları
Başımıza yağan daşlar pozdular.

Heç nə etmək olmaz qismətdən başqa,
Təkbətək savaşda udub qarışqa...
Ömrün fəsilləri əyləşib başda,
Yenə kefimizi qışlar pozdular.

Nə boyun qaçırtdıq hər siftəmizdən,
Sildik adımızı cığırdan, izdən...
Nəsə yazılmışdı sifətimizdə-
Gözümüzdən axan yaşlar pozdular.

## Hökm deyil ki?

Satdın eşqimizi su qiymətinə
Mən od qiymətinə tapmışam axı.
Atmağın, satmağın məni yandırmır,
Yandırır sevgimi ucuz tutmağın.

Mənim əziyyətlə qazandığımı,
Sən göz qırpımında sovurdun göyə.
Daddın ucuz ətin şit şorbasını,
Narazı-narazı keçdin gileyə...

Bu başqa oyundu, giley-güzardı
Ucdan tutub getdin ta ucuzluğa.
İndi nırxı çıxıb kasad bazarın
Baxmır zirəkliyə ...və acizliyə.

## Adətkərdəsən

Yenə son qərarı sən verəcəksən,
İmza atacaqsan son sərəncama.
Sənin həsrətinin nişanələri
Qonar pəncərəmə, qonar bacama.

Qopar xəyalımın sərt tufanları
Yolkəsən quldurtək çıxar qarşına.
Onda məzlum könlüm kimə yalvarsın,
Haranın daşını töksün başına?

Mənim öləziyən ümidim sönər,
Tutar ətəyimdən qaranlıq gecə.
Mən işıq dilini pis bildiyimdən
Ürəyimdən yalnız qaranlıq keçər.

Sən tərslik eləyib, min səmtə çəkdin,
Fikrimdə-zikrimdə "mənimsən" dedim.
Sən qərar verməyə adətkərdəsən,
Mən də icrasını mənimsəmədim.

## Ötmə saymazyana

Məni eşitmirsən, keçib gedirsən,
Sənə sərf eləmir mənə baxmağın.
Suyu da üfürüb, içib gedirsən,
Halına yanmırsan qoca bağbanın.

Bir cüt damla qalır, azca yaş qalır,
Sənin kipriyində, məni dinlə də:
Dişini çəkirlər, yeri boş qalır,
Söz çəkə bilmirəm kəlbətinlə də.

Ötmə saymazyana, gedirsən göylə,
Daşdan da səs çıxır, səndən səs çıxmır.
Suçumu gözümün içinə söylə,
Məni günahımın qorxusu sıxmır.

Gecikmiş ümidə vurma badalaq,
Doğma da bu qədər inadkar olar?
Bilməmiş olmazsan, deyirlər qulaq
Bir söz eşitməsə gündə kar olar.

## Nə sən peşimansan...

Dedim çox bağlama özünə məni,
Ürəyə xal düşər, bağlar qırılar.
Təpmə hər sözümü gözümə mənim,
Bizi birləşdirən tağlar qırılar.

Bir ömrü bəhsəbəs yaşadıq birgə,
Nə sən peşimansan, nə mən peşiman.
Təntimə, ləngimə, yanıma bir gəl,
Bəlkə, xiffət çəkir çəmən-peşiman?

Yola-yolağaya şor gözlər baxır,
Arxa çevirmişəm biryolluq pisə.
Gözucu baxdığın nərgizlər axı
Bizi tapşırmışdı bir-birimizə...

Demədim eşqinin daşını at sən,
Onu qazanmışam alın tərimlə.
Nə qədər doğmasan, o qədər yadsan,
Mənə bəslədiyin ümidlərinlə.

Yol ver, kor ümidə vaxtında çatım,
Bəlkə də, anadan doğuldum orda.
İstədim özümü dənizə atım,
Düşdüm göz yaşına, boğuldum orda.

## Dözmədim, ümid verdim

Nə baş verdi, yerişini dəyişdin,
Təbəssümün oxşamadı heç sənə.
Axı, yenə ara yerə dəyişdin,
Niyə çatır söylədiyim gec sənə?

Dünən dedim, qeybət qırma, istəsən,
Səhər-axşam kölgəmi də izlə sən.
Yəqin daha öləziyib istisi-
Təsir etmir qaladığım peç, sənə.

Novruz gəlib, yaşıl çəmən-dərgisi
Götür oxu, bənövşəni, nərgizi.
Tez açılıb çiçəklərin sərgisi-
İşıq yanır, yol açıqdır, keçsənə?

Səngiməyən hicran odu azalmır,
Bu həsrətin dərnəyinə yazıldım.
Mən dözmədim, ümid verdim, a zalım,
Qanad taxdım, mənə tərəf uçsana?

*Bakı*